# Qəbələ III Beynəlxalq İncəsənət Sərgisinin açılış mərasimi olmuşdur

(Əvvəli 3-cü səhifədə).

O cümlədən bu tədbir Azərbaycanla müxtəlif ölkələr arasında dostluq və mədəni əlaqələrin möhkəmlənməsinə şərait yaradır.

Sonra Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi Mərkəzinin direktoru Vilayət İsmayılov, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Azərbaycan və Rusiyanın Xalq rəssamı, akademik Tahir Salahov, Koreya Respublikasının ölkəmizdəki səfiri Çoi Suk-İn çıxış edərək sərginin mədəniyyətlərarası dialoqun tərkib hissələrindən biri olduğunu bildirmiş, bu incəsənət bayramının ənənəvi olaraq keçirilməsini arzulamışlar. Natiqlər rəngarəng sənət əsərlərinin nümayiş olunduğu bu sərginin qonaqların yaddaşında daim qalacağına, Qəbələnin gözəl və füsunkar təbiətinin rəssamlar üçün ilham mənbəyi olacağına ümid etdiklərini bildirmişlər.



Sərgi iştirakçılarından 24 nəfər müxtəlif nominasiyalar üzrə diplomla təltif olunmuşdur. Azərbaycanın zəngin mədəni irsinin və milli-mənəvi dəyərlərinin dünyada tanıdılmasına və «Qəbələ III Beynəlxalq İncəsənət Sərgisi» layihəsinin həyata keçirilməsində göstərdiyi misilsiz xidmətlərə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin fəxri diplomu ilə təltif olunmuşdur.

Çıxışlardan sonra sərginin açılışını bildirən qırmızı lent kəsilmiş və əsərlərə baxış keçirilmişdir. Sərginin tərtibatı, nümayiş olunan rəsm əsərləri tədbir iştirakçılarında xoş təəssürat yaratmışdır. Mütəxəssislər sərginin peşəkarcasına təşkil olunduğunu bir daha qeyd etmişlər. Sonra mədəniyyət mərkəzində konsert proqramı təqdim edilmişdir.

**Miri RƏHİMOV.**

# Böyük qələbədən 68 il keçdi





Mayın 9-da respublikamızın hər yerində olduğu kimi rayonumuzda da alman faşizmi üzərində qələbənin 68-ci ildönümü yüksək səviyyədə qeyd olundu. Həmin gün müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar, Böyük Vətən müharibəsi iştirakçılarının xatirə kompleksi önündəki ana abidəsinin postamenti üzərinə təzə tər qərənfillər qoydular.



Sonra tədbir «Qafqaz Sport» oteldə bayram süfrəsi arxasında davam etdirildi. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxışında 1941-1945-ci illərdə alman faşizmi ilə müharibədə azərbaycanlıların keçdiyi yola nəzər salaraq qeyd etdi ki, bu gün veteranların gənc nəslin tərbiyə edilməsində, vətənin müdafiəsinə hazırlanmasında gördükləri işlər çoxdur. Həmçinin hazırda rayonda sağ qalan və gənclərimizə örnək olan bu insanlara həmişə böyük ehtiram və qayğı göstəriləcəyini bildirdi. Veteranları Böyük Qələbə münasibətilə rayonun bütün əhalisi adından təbrik etdi, onlara can sağlığı, uzun ömür arzuladı.

Qızıl Aypara Cəmiyyəti rayon bölməsinin sədri Sədaqət Bayramova çıxış edərək veteranları Böyük Qələbə münasibətilə təbrik etdi.

Veteranlardan Nurəddin Şirinov, Qurban Ziyadov, Nurəddin Tağızadə və başqaları çıxış edərək müstəqil dövlətimizin, xüsusilə ölkə Prezidenti İlham Əliyevin onlara göstərdiyi qayğıdan danışdılar.

Toplantıda veteranlara RİH tərəfindən fəxri fərmanlar verildi.

**Oqtay MƏMMƏDOV.**

# Mədəniyyətimizin hamisi

Qəbələ rayon Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə dəyirmi masa keçirilmişdir. İlk olaraq toplantı iştirakçıları tərəfindən Heydər Əliyev parkında yerləşən Heydər Əliyevin abidəsi önünə tər çiçəklər qoyuldu.

Tədbir Mədəniyyət Mərkəzində davam etdirildi. Tədbiri giriş sözü ilə mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova açdı. Sonra söz rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya verildi. O, öz çıxışında ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən danışaraq, bu dahi insan barəsində öz ürək sözlərini söylədi sonra Mədəniyyət Mərkəzinin bədii rəhbəri Sahibə Dadaşova Heydər Əliyevin ömür yolu və fəaliyyəti barədə ətraflı çıxış etdi.

Tədbir iştirakçılarından MKS-nin İnformasiya Şöbəsinin işçisi Gülnar Ədilova, Rəsm Qalareyasının işçisi Elnurə Məmmədova, Mədəniyyət Mərkəzinin direktoru Vüqar Səlimov və digərləri çıxış edərək Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın müstəqilliyində və inkişafında mədəniyyətin dünyaya tanıdılmasında oynadığı böyük rolundan danışdılar.

Sonra tədbir iştirakşıları «Heydər Əliyev—mədəniyyətimizin hamisi» adlı sənədli filmə tamaşa etdilər. Filmin nümayişindən sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinə gedərək, ümummilli liderin büstü önünə gül dəstələri qoydular. Mərkəzdə Heydər Əliyevin həyat və fəaliyyəti barədə nümayiş olunan fotolarla tanış oldular.

**Şöhrət SÜLEYMANOV.**